Ölkədə formalaşan sənayeləşmə siyasətinə uyğun olaraq, regionlarda yerli xammala əsaslanan sənaye müəssisələrinin fəaliyyətinin keyfiyyətcə müasir səviyyədə qurulması və yeni müəssisələrin, sənaye məhəllələrinin yaradılması istiqamətində tədbirlər həyata keçiriləcək, innovasiya yönümlü texnologiyaların tətbiqi stimullaşdırılacaq, ixtisaslaşmış və ümumi təyinatlı sənaye parklarının yaradılması istiqamətində işlər davam etdiriləcəkdir. Sənaye parklarının və məhəllələrinin yaradılması ölkə iqtisadiyyatının inkişafına, modernləşdirilməsinə, yüksək texnologiyalı, rəqabətqabiliyyətli sənaye istehsalının və ölkənin ixrac qabiliyyətinin daha da genişlənməsinə, eləcə də məşğulluq səviyyəsinin yüksəlməsinə əhəmiyyətli təsir göstərəcəkdir. Ölkə iqtisadiyyatında uğur qazanmağın bazasını bütün sahibkarlıq subyektlərində istehsal və kommersiya sahibkarlığını daha az maddi, əmək və maliyyə resursları sərf etməklə inkişaf etdirməkdir. Gizli deyildir ki, hələlik Azərbaycanın regionlarında məhsuldar qüvvələr qeyri-bərabər yerləşdirilmiş, əsas ağırlıq yükü Abşeron yarmadasında yerləşən sahələrin üzərində qalmaqdadır. Lakin ölkədə aparılan iqtisadi siyasət həmin ağırlıq yükünün xeyli hissəsinin regionlara keçirilməsinə hədəfləmişdir.

Ədəbiyyat:

1. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.
2. “Kiçik və orta sahibkarlıq sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezi-dentinin 28 dekabr 2017-ci il tarixli Fərmanı.
3. Əliyev B.H., Cabbarova L.M. “Sahibkarlığın əsasları”. Bakı. 2002.
4. Məhərrəmov A.M.“Sahibkarlıq: nəzəriyyədən praktikaya”. Bakı. 2009.
5. Əliyev T.N., Həsənov Ə.H., Əsədov X.Ə. İnnovasiya sahibkarlığının əsas xüsusiyyətləri və təşkilinin səmərəliliyi. AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası. №2 Bakı. Elm. 2010. s.5-12.

## SAHIBKARLIQ FƏALİYYƏTİNİN İNKİŞAFINA TƏSİR EDƏN AMİLLƏR

*Xəlilova Xəyalə Qəmbər qızı*
*Mingəçevir Dövlət Univrersiteti, müəllim*
*Azərbaycan Dövlət Aqrar Universiteti, doktorant*

Sahibkarlığın təşkili və həyata keçirilməsi üçün ən vacib amillər bu sahibkarlıq növü ilə məşğul olmaq istəyən sahibkarın mövcudluğu, müvafiq istehsal fondlarının və işçi qüvvəsinin olmasıdır. Ancaq bunlardan əlavə sahibkarlığın təşkili, müvəffəqiyyətli fəaliyyəti bir sıra başqa amillərdən də asılıdır və sahibkar mütləq bu amilləri nəzərə almalıdır.

Müəssisədaxili amillər sahibkarlıq bilavasitə təsirinə məruz qala bilən və onun tərəfindən idarə oluna bilən amillərdir. Müəssisədaxili amillərin idarə edilməsi nisbi

xarakter daşıyır. Sahibkar bu amillərin formalaşması üsullarını və ya onlardan istifadə edilməsi üçün mövcud variantlardan birini seçmək imkanına malik olur. Bundan əlavə, sahibkar daxili amillərin hər birinin inkişafının istiqamətləndirilməsi imkanına da malik olur. Sahibkarlıq fəaliyyətinə təsir göstərən əsas daxili amillər aşağıdakılardır: sahibkarın məqsədi; məqsədə nail olmaq üçün seçilən texnika və texnologiya; seçilmiş texnika və texnologiyaya uyğun təşkilatı struktur; struktur bölmələrinin vəzifələri; qarşıya qoyulan vəzifələrin icraçılarının peşə-ixtisas tərkibi və hazırlıq səviyyəsi.

Müəssisənin təşkilati strukturunun hər bölməsi qarşısında müəyyən məqsədlər qoyulur ki, onlar da öz növbələrində bölmənin iş yerləri arasında hissələrə bölünürlər. hər bir vəzifə ümumi məqsədə nail olunmasına xidmət etməlidir. Ona görə də iş yerlərində və bölmələrdə vəzifələrin düzgün təyin olunması və bölüşdürülməsi sahibkarlıq fəaliyyətində mühüm əhəmiyyət kəsb edir.

Sahibkar seçdiyi məqsəd və vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsi üçün müvafiq texnika və texnologiya seçməlidir. Sahibkarın seçdiyi texnologiya ixtisaslaşmış əmək bölgüsü vasitəsilə mərhələlərə və hissələrə bölünür ki, onların icrası üçün ayrı-ayrı iş yerləri və bölmələri təşkil olunur. Təşkil edilən iş yerləri və bölmələri iyerarxiya tərkibində bir-birini tamamlamalıdır.

İqtisadi amillər əsasən əhalinin alıcılıq qabiliyyəti ilə bağlıdır. Çünki o, sahibkarlığın məqsədinə nail olmaq, yəni mənfəət əldə etmək vasitəsidir. Alıcıların pul vəsaitlərinin az və ya çox olması onların alacağı əmtəələrin və istifadə edəcəyi xidmətlərin növlərini, kəmiyyətini, bu əmtəələrə və xidmətlərə görə ödəməyə hazır olduqları məbləği müəyyən edir. Bu məbləğ nə qədər çox olsa, sahibkarlıq fəaliyyəti üçün daha əlverişli mühit yaranmış olar. Bununla yanaşı iqtisadi amillərə iş yerlərinin mövcudluğunu və məşğulluğun səviyyəsini də aid etmək olar. Məşğulluq səviyyəsi yüksək olduqca əhalinin gəlirləri də yüksək olur. İnformasiya, kredit əldə etmək imkanları, dövlətin sahibkara müxtəlif maliyyə güzəştləri, yardımları da iqtisadi amillərə aid edilməlidir.

Sahibkarlıq fəaliyyətinin səmərəli təşkil edilməsində dövlətin maliyyə-kredit, vergi siyasətinin də mühüm əhəmiyyəti vardır. Kredit faizlərinin aşağı olması, vergi güzəştləri sahibkarlığın inkişafına əlavə stimul yaradan iqtisadi amillər kimi xüsusi önəm daşıyır.

Sahibkarlıq fəaliyyətinin hüquqi amillərin rolu böyükdür. Sahibkarlıq yalnız qanunvericiliklə müdafiə olunmaqla inkişaf edə bilər. Ona görə də hər bir ölkədə, o cümlədən Azərbaycanda, sahibkarlığın, xüsusilə də istehsal sahibkarlığının inkişafı üçün mütərəqqi qanunların qəbul edilib tətbiq edilməsinə ehtiyac vardır.

Sahibkarlığın inkişafında ölkədə mövcud olan sosial-mədəni mühit də müəyyən rol oynayır. İctimai şüur, əhalinin təhsil səviyyəsi yüksək olan ölkələrdə sahibkarlığın inkişafı üçün daha münbit sosial-mədəni mühit mövcud olur. Bunlarla yanaşı əxlaqi və dini normalar, adət-ənənə, yaş-cins tərkibi, əhalinin məskunlaşma səviyyəsi, miqrasiya meyli də sahibkarlığın formalaşmasında və inkişafında əhəmiyyətli rola malikdir. Qeyd edilənlər insanların həyat tərzini, zövqünü, dünyagörüşünü, sahibkarlığa münasibətini formalaşdırır, onların müxtəlif növ

əmtəələrə və xidmətlərə, əmək haqqı səviyyəsinə, əmək şəraitinə tələbatını müəyyənləşdirir.

Sahibkarlıq müəyyən texnika və texnologiyadan istifadəyə əsaslanır. Ölkədə elmin, texnikanın və texnologiyanın inkişaf səviyyəsi artdıqca istehsal sahibkarlığının inkişafı daha da sürətlənir, yeni istehsal sahələri, müəssisələri yaradılır.

Ölkədə sahibkarlığın, xüsusilə də istehsal sahibkarlığının bu və digər sahələrinin inkişafında mövcud təbii-iqlim şəraiti, təbii sərvətlərin mövcudluğu, avtomobil, su, hava, dəmir yol şəbəkələrinin inkişaf səviyyəsi, ölkənin coğrafi mövqeyi və beynəlxalq əmək bölgüsündə iştirak səviyyəsi əhəmiyyətli rol oynayır. Ölkənin əlverişli coğrafi mühiti sahibkarlığın bu və ya digər sahələrinin inkişafına əlavə stimul yaratmaqla bərabər, ölkəyə xarici investisiyaların cəlb edilməsinə də münbit şərait yaradır.

Hər hansı bir ölkədə sahibkarlığın inkişafında, xüsusilə də ölkəyə xarici investisiyaların cəlb edilməsində infrastrukturla bağlı amillərin rolu böyükdür. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, istehsal sahibkarlığının səmərəli təşkilinə həmçinin aşağıdakı xarici amillər də təsir göstərir: tərəfdaşlar, tərəfdaşlıq əlaqələrinin səviyyəsi və etibarlılığı; işçilərin peşəkarlıq səviyyəsi; firmanın istehlakçılar arasında nüfuzu; həmkarlar ittifaqı; rəqiblər, onların üstün və zəif cəhətləri, rəqabətin səviyyəsi; dünya bazarlarında vəziyyət.

Sahibkarlığın formalaşmasına və inkişafına müəssisədaxili və müəssisəxarici amillərlə yanaşı sosial-iqtisadi amillər də əhəmiyyətli dərəcədə təsir göstərir. Sahibkarlıq fəaliyyətinin səmərəli həyata keçirilməsində bu amillərin rolunu nəzərə almaq və onlardan istifadə etmək lazımdır.

Ədəbiyyat:

1. V.Niftullayev. Sahibkarlığın əsasları. Bakı, 2012.
2. T.Əhmədov. Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafına dair. Bakı, 2012.
3. Y.M.Osmanov. Sahibkarlıq işinin əsasları. Moskva, 1996.